# YEVLAX: GÖRÜLƏN İŞLƏRİN FƏRƏHLİ NƏTİCƏLƏRİ






**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2017-ci ilin 9 ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasındakı nitqində ölkə başçısı milli inkişaf prioritetlərinin düzgün müəyyənləşdirilməsi, ölkənin bütün potensialının, intellektual resursların, insan kapitalının gücləndirilməsi yönümündə səfərbər edilməsi məsələlərindən irəli gələn vəzifələr Yevlax Şəhər İcra Hakimiyyətinin, YAP Şəhər Təşkilatının, hüquq-mühafizə orqanlarının, təhsil, səhiyyə, mədəniyyət, idarə və təşkilatlarının rəhbərlərinin iştirakı ilə keçirilən yığıncaqda geniş müzakirə olunmuşdur.**

Yığıncağı giriş sözü ilə açan **Yevlax Şəhər İcra Hakimiyyətinin başçısı Qoca Səmədov** sosial-iqtisadi uğurlardan əhatəli məlumat verərək qeyd etmişdir ki, ümummilli liderimiz Heydər Əliyev tərəfindən müəyyən edilmiş inkişaf strategiyası 14 ildir ki, möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən yeni dövrün tələblərinə uyğun uğurla davam etdirilir.

Cənab Prezidentin daimi diqqət və qayğısını hiss edən yevlaxlılar əvvəlki illərdə olduğu kimi, 2017-ci ilin doqquz ayında da şəhərimizin inkişafı üçün bütün qüvvələri səfərbərliyə almışlar.

2017-ci ilin doqquz ayında ümumi daxili məhsulun həcmi 482,2 milyon manat olmuşdur, ümumi daxili məhsulun həcmi 2016-cı ilin müvafiq dövrünə nisbətən 85,0 milyon manat və yaxud 21,4 faiz çox olmuşdur.

Cari ilin doqquz ayında əhaliyə göstərilən ticarət, iaşə və digər xidmətlərin səviyyəsini yüksəltmək üçün 15 obyekt tikilmişdir.

2018-ci ilin məhsulu üçün payızlıq əkin işlərinə başlanmışdır. Hazırda 600 hektar taxıl, 650 hektar təzə yonca, 20 hektar tərəvəz bitkisi əkilmişdir. Payızlıq əkini davam edir. Əkin sahələrinin suvarılmasının yaxşılaşdırılması və məhsuldarlığının yüksəldilməsi məqsədilə rayonun ərazisində 313 km suvarma kanalı mexanizmlərlə lildən təmizlənmiş, hidrotexniki qurğuların 73 ədədində cari təmir işləri aparılmışdır.

2017-ci ildə 2168 hektarda pambıq əkilmiş və indiyə qədər 800 ton pambıq məhsulu yığılmışdır. Hazırda pambıq yığımı davam edir. Rayonda ilk dəfə olaraq 700 hektar soya bitkisi əkilmiş və indiyə qədər 600 ton məhsul yığılmışdır. Hazırda yığım işləri davam etdirilir.

2017-ci ildə 10 ton barama istehsal edilməsi nəzərdə tutulmuş, faktiki 5585 kq barama istehsal edilmişdir.

2017-ci ilin doqquz ayında 1721 iş yeri açılmışdır. Onlardan 1146-sı daimidir. Ümumilikdə 2004-2017-ci illərdə rayonda 21625 iş yeri yaradılmışdır ki, onlardan 13890-ı daimi iş yerləridir.

Doqquz ay ərzində İqtisadi İnkişaf Nazirliyinin Aran regional İnkişaf mərkəzinin binası, uzunluğu 17,7 km olan Salahlı-Balçılı-Ağqırax-Varvara-Cırdaxan-Yevlax şəhərinə giriş kəndlərarası avtomobil yolu, Mingəçevir-Bəhramtəpə avtomobil yolunun Mingəçevir-Aran qəsəbəsi hissəsi istifadəyə verilmişdir. Avtomobil yollarının istifadəyə verilməsi əhalisinin sayı 12 min nəfər olan 8 kəndin sosial-iqtisadi inkişafına müsbət təsir göstərəcəkdir. Varvara Balıqartırma və Yetişdirmə zavodu, Varvara Su elektrik stansiyası yenidən qurulmuşdur. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 16-17 aprel 2017-ci il tarixlərində Yevlax şəhərinə səfəri zamanı həmin obyektlərin açılışında iştirak etmişdir. Onu da nəzərinizə çatdırmaq istəyirəm ki, Mingəçevir-Bəhramtəpə avtomobil yolunun Aran qəsəbəsi-Yevlax-Bərdə avtomobil yolu hissəsinin tikintisi aparılır.

Hazırda Kür çayı sahilində 5 ulduzlu hotelin, 12 saylı Ərazi Vergilər Departamentinin binalarının, Kür çayı üzərində dəmir yol körpüsünün, Aran qəsəbəsində ailə sağlamlıq mərkəzinin, Pambıq qəbulu məntəqəsinin tikintisi aparılır. Pambıq zavodunda isə yenidənqurma işləri görülmüşdür.

2017-ci ilin doqquz ayında əhalinin içməli su ilə təmin olunması diqqət mərkəzində olmuş, artezian və subartezianların, kanalizasiya nasos stansiyalarının istismarı nəzarətdə saxlanılmışdır. Əhalinin içməli su ilə təminatında və çirkab, yağış sularının şəhərdən kənarlaşdırılmasında problemlər olmamışdır. Su Kanal İdarəsi tərəfindən istehlakçılara 453,0 min manatlıq xidmət göstərilmiş, debitor borclar da nəzərə alınmaqla ödəniş isə 504,0 min manat, yəni 111,2 faiz olmuşdur.

Şəhərdə və rayon ərazisində əhalinin və istehsalat sahələrinin fasiləsiz və dayanıqlı elektrik enerjisi ilə təmin olunması həyata keçirilmişdir. 2017-ci ilin doqquz ayında rayonun Qaraməmmədli, Salahlı, Balçılı, Nərimanabad və Varvara kəndlərində 254 ədəd köhnə dayaqlar yeni dəmir-beton dayaqlarla əvəz edilmişdir. Salahlı və Balçılı kəndlərində 5 ədəd komplekt transformator məntəqələri quraşdırılmışdır. Rayonun 11 kəndində elektrik təsərrüfatının yenidən qurulması işləri aparılır.

Yevlax şəhərində və kəndlərdə ümumi abonentlərin 95 faizi təbii qaz ilə təmin olunmuşdur. Şəhər də daxil olmaqla 50 yaşayış məntəqəsindən 43-ü qazlaşdırılmışdır. Növbəti ildə digər kəndlərin qazlaşdırılması məqsədi ilə müvafiq sənədlər hazırlanıb "Azəriqaz" İB-yə təqdim olunmuşdur. Hesabat dövründə 160 abonentə təbii qaz verilmişdir. 1810 metr müxtəlif diametrli borularla qaz xətləri təmir olunmuş, 3 ədəd yeni qaz tənzimləyiciləri quraşdırılmışdır. Aparılan tədbirlər nəticəsində qaz itkisi xeyli azalmışdır.

Cənab Prezident tərəfindən ölkəmizdə təhsilə göstərilən qayğı, təhsil müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsi, icbari təhsilin həyata keçirilməsi, şagirdlərə dərin bilik verilməsi, müəllim əməyinin qiymətləndirilməsi rayonumuzun təhsilində də öz əksini tapmışdır. 5 oktyabr — Beynəlxalq Müəllimlər Günü münasibətilə təhsil nazirinin əmri ilə şəhər 5 nömrəli tam orta məktəbin müəllimi Elza Əhmədova, şəhər 9 nömrəli tam orta məktəbin müəllimi Nuranə Rəhimova, Aran qəsəbə 1 nömrəli tam orta məktəbin müəllimi Kəmalə Cəbiri və Qaraoğlan kənd tam orta məktəbin direktoru Ağalar Həsənov Təhsil Nazirliyinin Fəxri fərmanı ilə təltif olunmuşlar. Təhsil Nazirliyinin xətti ilə şəhər 4, 5 nömrəli tam və Bəydili kənd ibtidai məktəblərində cari təmir işləri aparılmışdır. Hazırda modul tipli Marzılı kənd ibtidai məktəb binasında son tamamlama işləri davam edir. Rayonun ümumtəhsil məktəblərinin 1850 nəfər müəllimi Müəllimlərin Biliklərinin Diaqnostik Qiymətləndirilməsində iştirak etmiş rayon üzrə orta bal 36,4 olmuşdur. Bu da 2018-ci ilin yanvar ayından müəllimlərin əmək haqlarının əsaslı surətdə artmasına səbəb olacaqdır. Ötən dərs ilində şagirdlərin ali təhsil müəssisələrinə qəbulu yaxşı olmuşdur. Orta məktəbi bitirən 1002 nəfərdən 495 nəfəri ali məktəblərə sənəd vermiş, 275 nəfər respublikanın, 21 nəfər xarici ölkələrin ali məktəblərinə qəbul olunmuşlar. Ali məktəblərə qəbul olunanlardan 9 nəfəri 600-dən, 39 nəfəri 500-dən çox bal toplamışdır.

Çıxışının sonunda Yevlax Şəhər İcra Hakimiyyətinin başçısı Qoca Səmədov tam əminliklə bildirdi ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin qarşıya qoyduğu ümdə tapşırıq və tövsiyələr vaxtında və layiqincə yerinə yetiriləcək, doğma Yevlax şəhərinin daha da inkişaf etdirilməsi üçün bütün qüvvələr səfərbərliyə alınacaqdır.

Çıxış edənlərdən Şəhər "Su-Kanal" İdarəsinin rəisi Sabir Həsənov, Tərtər Regional Qaz İstismar İdarəsinin rəisi Maksim Cəfərov, Şəhər Paylayıcı Elektrik Şəbəkəsinin rəisi Elşad Abbasov Azərbaycanda və şəhərdə gedən kompleks inkişafdan və infrastrukturlardakı yeniliklərdən ətraflı danışaraq, Yevlax sakinləri adından ölkə Prezidenti cənab İlham Əliyevə sonsuz diqqət və qayğıya görə dərin minnətdarlıqlarını ifadə etdilər.

**Zabit XƏLİLOV,**
**"Respublika".**